

# Azərbaycan Ordusu düşmənə göz açmağa imkan vermir

***Qarabağ müharibəsində ağır döyüşlər davam edir. Müzəffər Azərbaycan Ordusu cəbhənin bütün istiqamətləri boyu öz aşkar üstünlüyünü qoruyub saxlayır. Mənəvi sarsıntı keçirən düşmən sıralarında başıpozuqluq hökm sürür.***

Cəbhədən aldığımız operativ məlumatları diqqətinizə təqdim edirik. Bu il oktyabrın 30-dan 31-nə keçən gecə Ermənistanın silahlı qüvvələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif silahlardan, o cümlədən artilleriya və raketlərdən atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib ki, döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. Düşmənin bütün hücum cəhdlərinin qarşısı qətiyyətlə alınıb.

Cəbhənin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinə qarşı görülən cavab tədbirləri nəticəsində düşmənin şəxsi heyəti arasında ölən və yaralananlar var.

Son iki gündə qoşunlarımızın dəqiq atəş zərbələri nəticəsində Ermənistanın motoatıcı diviziyasının mövqelərinə yaxınlaşan döyüş texnikası məhv edilib və sıradan çıxarılıb. Bunun nəticəsində düşmənin müxtəlif təyinatlı 27 hərbi texnikası və xeyli sayda canlı qüvvəsi məhv edilib.

Həyata keçirilən əməliyyatlar nəticəsində düşmənin motoatıcı alayının iki zabiti məhv edilib, xeyli sayda yaralı var. Digər motoatıcı alayın mövqelərinə endirilən zərbələr nəticəsində ölən və yaralananlar arasında iki bölük komandiri də var.

Düşmənin dağatıcı alayının döyüş mövqelərinə vurulan zərbələr nəticəsində taborun şəxsi heyətinin 50 faizinin məhv edildiyi, zabitlərdən cəmi 5 nəfərin sağ qaldığı müəyyən edilib. Sağ qalan erməni hərbi qulluqçularının isə döyüş mövqelərini ataraq qaçdığı məlum olub.

Düşmənin Xocavənd istiqamətində yerləşən bölmələrinin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralananların olduğu, silah-sursatın tükəndiyi, bölmələr arasında rabitənin olmadığı barədə məlumat da var.

Döyüş mövqeyinə çıxarılan əlahiddə taborun şəxsi heyəti arasında da xeyli sayda ölən və yaralananların, eləcə də ölənlər arasında bölük komandirlərinin olduğu məlum olub.

İki gün ərzində və gecə saatlarında düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd Su-25 təyyarəsi, 3 ədəd T-72 tankı, 1 PDM, 2 ədəd “Smerç” və 1 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemləri, 10 ədəd müxtəlif tipli topu, 2 ədəd “Qvozdika” özüyeriyən haubitsası, 1 ədəd “Osa” ZRK, 1 ədəd P-18 radiolokasiya stansiyası, 4 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Qeyd edək ki, Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinə (ANAMA) Ağcabədi, Ağdam, Bərdə, Cəbrayıl, Füzuli, Goranboy, Tərtər rayonları ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin “102” xidməti-zəng mərkəzi sistemindən 58 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzindən 3 müraciət daxil olub.

ANAMA-dan mətbuata verilən məlumata görə, daxil olmuş 61 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Hacılar, Palıdlı, Qaraxanlı, Yuxarı Qiyaməddinli kəndləri, Ağdam rayonunun Çəmənli, İkinci Yüzbaşlı, Alıbəyli, Əfətli, Təzəkənd, Ayaq Qərvənd, Üçoğlan kəndləri, Bərdə rayonunun B.Hacıyev, Bakı, Koroğlu, Natavan, Ü.Hacıbəyov küçələri, H.Əliyev prospekti, Mirzalıbəyli kəndi, Cəbrayıl rayonunun Soltanlı kəndi, Füzuli rayonunun Əhmədalılar, Alxanlı, Arayatlı kəndləri, Goranboy rayonunun Tapqaraqoyunlu, Qızılhacılı kəndləri, Tərtər rayonunun Buruc, Düyərli, Köçərli, Ələsgərli kəndləri ərazisinə Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 50 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib.

Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 1 ədəd 122 mm-lik top mərmisi (OF-56), 1 ədəd 9N235 bombacığı, 2 ədəd 122 mm-lik raket (9M22U), 225 ədəd tank əleyhinə TM-62P2 minası, 224 ədəd MVP-62 partladıcısı və 44 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 3 ədəd raket, 1 ədəd 9N235 bombacığı zərərsizləşdirilib, mina təhlükəsinə dair maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 36 045 nəfər mülki şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

Ermənistan tərəfi yenidən beynəlxalq ictimaiyyətə yenidən dezinformasiya məlumatları təqdim edib. Belə ki, Ermənistanın bir çox rəsmi saytları Azərbaycan Ordusunun guya Ermənistan ərazisində İranla həmsərhəd bölgələrdə yerləşən Rusiya sərhəd zastavasını minaatanlardan atəşə tutması ilə bağlı saxta məlumatlar yayıblar.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi bu saxta xəbəri qətiyyətlə təkzib etmişdir. Bununla bağlı xəbərdə qeyd edilir ki, sözügedən məlumat dezinformasiyadır və təxribat xarakteri daşıyır. Məlumatda həmçinin bildirilir ki, əksinə, həmin istiqamətdə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazisi atəşə tutulub.

***Hazırladı:***
***Məsaim ABDULLAYEV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti 2020.- 1 noyabr.- S.5.